# Azərbaycan və Türkiyə bir ailədir

## TÜRKİYƏNİN BAŞ NAZİRİ ƏHMƏD DAVUDOĞLUNUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

### "ADA" Universitetində görüş

Azərbaycan Respublikasına rəsmi səfəri çərçivəsində Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu dekabrın 4-də "ADA" Universitetində olub.

Baş nazir Əhməd Davudoğlunu və qonaqları "ADA" Universitetində salamlayan rektor, xarici işlər nazirinin müavini Hafiz Paşayev bildirib ki, Türkiyə-Azərbaycan münasibətlərinin yüksək səviyyədə inkişafında diplomatların da rolu böyükdür. Rəhbəri olduğu təhsil ocağı haqqında məlumat verən Hafiz Paşayev hazırda Türkiyənin bir çox universitetləri ilə əməkdaşlıq etdiklərini vurğulayıb. Hafiz Paşayev Baş nazir Əhməd Davudoğlunun ictimai-siyasi fəaliyyəti barədə auditoriyanı məlumatlandırıb. Rektor Baş nazir Əhməd Davudoğlunun Universitetə gəlişini tarixi hadisə adlandırıb.











"Türkiyə-Azərbaycan strateji tərəfdaşlığı qlobal çağırışlar qarşısında" adlı mühazirəsində Türkiyənin Baş naziri Əhməd Davudoğlu ölkələrimiz arasında yüksək səviyyəli münasibətlərin olduğunu bildirərək deyib: "Bizim münasibətlər istənilən iki ölkə arasında olan əlaqələrdən çox fərqli və xüsusi bir yerə sahibdir. Bunun ən yaxşı ifadəsini ulu öndər Heydər Əliyev "Bir millət, iki dövlət", şairimiz Bəxtiyar Vahabzadə "Türkiyə və Azərbaycan, bir ananın iki oğlu" deyərək qeyd ediblər. Azərbaycan və Türkiyə bir ailədir. Biz ayrılmaz münasibətlərə sahibik".

Ölkələrimiz arasında sıx iqtisadi əlaqələrin də olduğunu söyləyən Baş nazir qeyd edib ki, hədəfimiz qarşılıqlı sərmayə qoyuluşunu qısa müddətdə 20 milyard dollara, hazırda 5 milyard dollar olan ticarət dövriyyəmizi isə 15 milyard dollara çatdırmaqdır.

Türkiyənin Baş naziri ölkəsinin yürütdüyü xarici siyasətdən də geniş bəhs edib. Qeyd edib ki, Türkiyənin yürütdüyü xarici siyasətin əsasında insanlıq diplomatiyası durur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarına toxunan Əhməd Davudoğlu Türkiyənin Azərbaycanın ədalətli mövqeyini həmişə dəstəklədiyini vurğulayıb. Qeyd edib ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunan torpaqlarının hər bir qarışının geri qaytarılmasında Türkiyə ölkəmizin yanındadır. Əhməd Davudoğlu Azərbaycan ilə Türkiyənin Qafqazda daimi sülh yaratmaq niyyətində olduqlarını bildirib. Baş nazir regionda reallaşan, Türkiyə və Azərbaycanın əsas rol oynadıqları Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi layihələrin əhəmiyyətindən danışıb, eyni zamanda, TAP, TANAP layihələrinin də regionun inkişafına verəcəyi töhfələrdən bəhs edib.

Sonda Baş nazir Əhməd Davudoğlu ADA Universitetinin tələbələrinin suallarını cavablandırıb.

### Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu dekabrın 4-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Tanınmış dövlət xadimi və ictimai xadim Əziz Əliyevin və istedadlı həkim-alim Tamerlan Əliyevin məzarları üstünə də gül dəstələri qoyulub.

### Şəhidlərin xatirəsinə ehtiram

Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu dekabrın 4-də Şəhidlər xiyabanını ziyarət edib.

Burada Türkiyə Baş nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Baş nazir Əhməd Davudoğlu Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Türkiyənin və Azərbaycanın dövlət himnləri səslənib.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən Türkiyənin Baş nazirinə Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Sonra Baş nazir Əhməd Davudoğlu Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklil qoyub, şəhidlik kitabəsinin üstünə gül dəstələri düzüb.

### Səfər başa çatdı

Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlunun Azərbaycan Respublikasına rəsmi səfəri dekabrın 4-də başa çatıb.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Türkiyənin Baş nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlunu və xanımı Sare Davudoğlunu hava limanında Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov və digər rəsmi şəxslər yola saldılar.